# Azərbaycan regionun iqtisadi lokomotivinə çevrilir

***Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Avropa İttifaqının rəsmiləri və Ermənistanın baş naziri ilə apardığı müzakirələr ölkə ictimaiyyətində dərin razılıq hissilə qarşılanmışdır. Milli Məclisinin deputatı Anatoli Rafailov bu barədə fikirlərini bizimlə bölüşərkən bunları dedi:***



– Mən möhtərəm Prezidentin Brüsselə səfərini, orada keçirdiyi mühüm görüşləri televiziyadan diqqətlə izləmişəm. Qeyd etmək istəyirəm ki, çağdaş dünyanın ən görkəmli dövlət xadimlərindən olan cənab İlham Əliyevin səfər zamanı səsləndirdiyi dəyərli fikir və bəyanatlar Avropanın siyasi elitası tərəfindən də dərin maraqla qarşılanmışdır.

Qeyd etmək lazımdır ki, Avropa siyasətçiləri Azərbaycan Prezidentinin Brüsseldə Cənubi Qafqaz regionunun gələcək taleyi ilə bağlı konstruktiv movqe nümayiş etdirməsini yüksək qiymətləndirirlər. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və NATO-nun Baş katibi Yens Stoltenberq Prezident İlham Əliyevlə keçirdikləri konstruktiv müzakirələrdən razı qaldıqlarını gizlətməmişlər.

Avropa mediası da Prezident İlham Əliyev Brüssedə işgüzar səfərinə böyük diqqət göstərmişdir. Möhtərəm Prezidentin bir çox fikir və bəyanatları Avropa mətbuatının gündəmini müəyyən etmişdir. Cənab İlham Əliyev Brüsseldə olarkən dekabrın 15-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib. Dövlətimizin başçısı müsahibədə regionda baş verən prosesləri dərin məntiq və əsaslı arqumentlər əsasında şərh edib.

Jurnalistin Azərbaycanın dünyada, eləcə də Asiyada çox önəmli strateji mövqe tutmasının regionun inkişafına hansı müsbət təsiri olacağı ilə bağlı sualına cavabında Prezident İlham Əliyev demişdir: "Mən sizin fikrinizlə tamamilə razıyam. Əslində, biz bunu Azərbaycanda ən azından son onillikdə fəal şəkildə həyata keçiririk. Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk. Bu, asan iş deyil, çünki bizim açıq dənizə çıxışımız yoxdur. Biz, birinci növbədə, qonşularımızla yaxşı münasibətlərdə olmalıyıq. Çünki bu münasibətlər olmadan heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz. Bu imkanı yaxşı regional əməkdaşlıq mühiti, üstəgəl nəqliyyat infrastrukturuna investisiya yaratdı. Lakin bu, asan deyildi, çünki biz çoxlu sərmayə yatırmalı idik".

Bəli, Avropa görür ki, vaxtilə işğalçı Ermənistanın vandalcasına dağıtdığı Qarabağda Azərbaycan dövləti bu gün böyük bərpa və tikinti-quruculuq işləri görür. Avropa onu da görür ki, Azərbaycan dövləti və onun lideri regionda ölkələrarası nəqliyyat kommunikasiyalarının açılması və səmərəli fəaliyyət göstərməsi üçün çalışır. Bu təşəbbüslər təkcə Azərbaycan xalqına deyil, bu ərazidə yaşayan digər xalqlara, o cümlədən, ermənilərə də rifah gətirəcək. Azərbaycanın mövqeyi pozitiv və mütərəqqi mövqedir. Avropa məhz buna görə rəsmi ölkəmizin təşəbbüslərinə hörmət və sayğı ilə yanaşır.

Bu gün Azərbaycan Mərkəzi Asiyadan gələn mallar üçün tranzit ölkəyə çevrilir. Çin də öz mallarını Avropa məkanlarına daşıyır. Əlavə üstünlük ondan ibarətdir ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizi üzərində yerləşir. Bəli, Azərbaycan regionun iqtisadi lokomotivinə çevrilərək bölgəyə inkişaf, tərəqqi və sülh gətirmək əzmindədir.

Prezident İlham Əliyev sonra demişdir: "Əlbəttə ki, İkinci Qarabağ müharibəsindən sonra hər yerdə artıq Zəngəzur dəhlizi adlandırılan yeni dəhlizi açmaq üçün imkan var. O, Azərbaycandan Ermənistana və oradan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedərək Türkiyə və Avropaya qədər uzanır, bu da nəqliyyat üçün alternativ marşrut olacaq. Üstəgəl biz Bakının yaxınlığında Ələt qəsəbəsində yerləşən azad iqtisadi zonanın yaradılması üzərində fəal çalışırıq. Bu zona gələn il fəaliyyətdə olacaq".

Bəli, burada uduzan tərəf yoxdur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistanda bu qızıl fürsəti həqiqətən dərk etməlidirlər ki, onlar daha da fəal hərəkət etsinlər və gələcək planlarda bizə qatılmaq üçün tərəddüd etməsinlər.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***